*1 avqust–Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

# Ana dilimiz Azərbaycan xalqının ən böyük sərvətidir

Ölkəmizdə İslam dininin yayılması ilə əlaqədar ərəb əlifbasından geniş istifadə olunmuş, yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolu oynamışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqələrinə xidmət etmiş ərəb qrafikası dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilmir, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmır. Bu çatışmazlıqlar M. F. Axundzadə başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarında əlifba islahatı keçirmək ideyaları yaranmışdı. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu Komitəyə Azərbaycan dili üçün latın qrafikası ilə əlifba tərtib etmək tapşırığı verildi. Bu yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. Lakin Sovet imperiyası xaricdə yaşayan türkdilli xalqlar arasında mədəni əlaqələrin güclənməsinə imkan verməmək məqsədilə 1940-cı il yanvarın 1-dən kiril qrafikalı əlifbaya keçmək haqqında qərar qəbul etdi. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Azərbaycan dövlətinin dili siyasətinin müəyyənləşməsində ümummilli lider Heydər Əliyevin çox xidmətləri var. Unudulmaz insanın 18 iyun 2001-ci il tarixli «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında»kı fərmanında deyilir: «Azərbaycan dili bu gün dərin fikirlərin incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqdan bir neçə minillik tarixi yaşaması lazım gəlir». Bu mənada biz xoşbəxtik ki, doğma Azərbaycan xalqı həqiqətən də dünyanın ən qədim xalqlarından biridir.

Ümummilli lider Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan dilinin dövlət dilinə yalnız sözdə deyil, əməldə çevrilməsi üçün bütün gücü, qüdrəti, iradəsi və cəsarəti ilə çalışmışdır. Dünyaya səpələnmiş azərbaycanlılar arasında bir daha ünsiyyət vasitəsi, milli-mənəvi körpülər olması üçün əsl mübarizə aparmışdır. Ana dilimizi Azərbaycan xalqının ən böyük sərvəti hesab edən ulu öndər çıxışlarında tez-tez vurğulayırdı ki, milli dövlət quruculuğu prosesinin çox mühüm sərvətlərindən biri milli ədəbi dil zəminində xüsusi rəsmi dil üslubunun formalaşmasıdır. Bu səbəbdən də Azərbaycan dilini dövlətçiliyin əsas rəmzilərindən sayaraq onun saflaşması naminə vaxtaşırı olaraq xüsusi tədbirlər həyata keçirirdi. «Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli sərəncamı da məhz bu niyyətlə imzalamışdı. Beləliklə, 1 avqust ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilməkdədir.

Təqdirəlayiq haldır ki, ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Prezident İlham Əliyev də doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır, inam və qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz dövlət başçımızın özüdür. Azərbaycan ədəbiyyatının, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz İlham Əliyevin təşəbbüsü ilə baş tutdu.

**Aslan CƏLİLOV.**

# Gənclərin sağlamlıq festivalı

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın 6.6.1-ci yarımbəndində rayon və şəhərlərdə zərərli vərdişlərin profilaktikası ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi mərkəzi və yerli icra hakimiyyətlərinin üzərinə vəzifə kimi qoyulmuşdur. Bu məqsədilə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə sağlam həyat tərzinin kütləvi bədən tərbiyəsi və idman vasitəsilə geniş təbliğ edilməsi üçün Qəbələ Olimpiya İdman Kompleksində "Gənclərin Sağlamlıq Festivalı" keçirilmişdir.



Tədbirdə rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Yaşar Nəzirov iştirakçıları Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin adından salamlayaraq, idmana dövlət tərəfindən göstərilən qayğıdan, gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, təhsil sahəsində görülən işlərdən və qazanılmış nailiyyətlərdən danışdı. Daha sonra rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək layihənin məqsəd və vəzifələri haqqında məlumat verərək bildirdi ki, bu gün ölkəmizdə gənclər siyasəti və idmanın inkişaf etdirilməsi sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bu da əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin nəticəsidir.

Çıxışlardan sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, festival açıq elan olundu və 200-dək uşaq və yeniyetmənin iştirakı ilə vətənpərvərlik və idman üslubunda musiqi sədaları altında rayonda fəaliyyət göstərən idman bölmələrindən - cüdo, boks, sərbəst güləş, futbol, atletika və s. nümunəvi çıxışlar nümayiş etdirildi. Daha sonra «Kapoyera» idman klubunun, «Olimp» rəqs qrupunun və gənc estrada müğənnisi Rolan Seyidovun ifasında maraqlı konsert proqramı başlandı.

Tədbirin sonunda fərqlənən idmançılara və məşqçilərə diplom və xatirə hədiyyələri təqdim edildi. Festival musiqi sədaları altında yekunlaşdı.

**Mübariz AĞAYEV,**
**Gİİ-nin aparıcı məsləhətçisi.**

*Faydalı bitkilər*

# Sarımsaq

Sarımsaqdan Şərq təbabətində çox qədim zamanlardan dərman kimi xroniki mədə-bağırsaq xoralarının müalicəsində, ümumi zəiflikdə, avitaminozda, zob xəstəliyində və sairdə istifadə olunur. Onun tərkibi fitonosidlər, sellüloza, C vitamini, yod, kalsium, marqans duzları, efir yağı və kükürdlü birləşmələrlə zəngindir. Son dərəcə qüvvətli bakterisid kəsirə malik olan sarımsağın tərkibindəki müalicə əhəmiyyətli maddələrdən biri də disulfid adlanan kükürdlü üzvü birləşmədir. Xalq təbabətində sarımsaq xörəklərdə və ya turşuya qoyulmuş sarımsaq vərəm xəstəliyi xamanı iştah artıran, bəlgəmgətirən vasitə kimi işlədilir. Soyuqdəymə və sətəlcəm zamanı tənəffüs yollarını açmaq üçün faydalıdır. Sarımsaqdan çəkilmiş spirtdən xroniki mədə katarı, həzmetmənin zəifliyi, qarın köpü zamanı geniş istifadə olunur. O, şəkər xəstəliyi zamanı da faydalıdır. Qabığı soyulmuş sarımsaqdan bişirilmiş bəkməz hipertoniya xəstəliyinə tutulmuş insanlar üçün ən yaxşı müalicə vasitəsidir.

Müasir elmi təbabətdə də sarımsaqdan müalicə məqsədilə geniş istifadə edilir. Belə ki. sarımsağın təzə yığılmış soğanağından hazırlanmış dərman preparatları mədənin həzm prosesini yaxşılaşdırır, mədəbağırsaq xoralarını sağaldır, aterosklerozun qarşısını alır. Bu preparatlar həm də mədə və bağırsağın şirə ifrazetmə qabiliyyətini artırır, bağırsaqlarda əmələ gələn qıcqırmanın qarşısını alır, qanda xolesterinin miqdarını azaldır və hiporteniya xəstəliklərinin müalicəsində müsbət təsir göstərir. Bundan başqa sarımsağın qurd xəstəliyinə qarşı müsbət təsiri vardır.

Sarımsağın ən arzuolunmaz problemi isə onun ağızda yaratdığı xoşagəlməz qoxudur. Sarımsaqlı yemək qəbul etdikdən sonra bir stəkan süd içmək qoxunu aradan qaldırır. Yağlılıq dərəcəsi yüksək olan süd isə daha faydalı olar.

Ümumiyyətlə, məişətdə sarımsaqdan bolluca istifadə etmək heç bir zərər gətirməz.

**Şöhrət SÜLEYMANOV.**

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*N. R. Atakişiyev.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AIIB
33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2122.